**Azərbaycan Respublikasının Ailə Məcəlləsində, “Kredit ittifaqları haqqında”, “Tütün və tütün məmulatı haqqında”, “Banklar haqqında” və “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

# AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126; 2002, № 12, maddə 702; 2004, № 7, maddə 505; 2006, № 2, maddə 66, № 11, maddə 923, № 12, maddələr 1005, 1006; 2007, № 1, maddə 4, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1218; 2008, № 7, maddə 602; 2010, № 2, maddə 70, № 3, maddə 171, № 5, maddə 380, № 7, maddə 578; 2011, № 7, maddələr 585, 620, № 12, maddə 1110; 2014, № 12, maddə 1515; 2019, № 2, maddə 185, № 3, maddə 372, № 5, maddə 800, № 12, maddə 1906; 2020, № 7, maddə 832, № 12 (I kitab), maddə 1424; 2021, № 4, maddə 308, № 6 (I kitab), maddə 541, № 7, maddə 711, № 8, maddə 894; 2022, № 1, maddə 11, № 6, maddə 580, № 8, maddə 828; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 666-VIQD nömrəli, 20 dekabr tarixli 739-VIQD nömrəli və 27 dekabr tarixli 776-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 32.2.2-ci maddədə “idarələrinə” sözü “təşkilatlarına” sözü ilə əvəz edilsin;

1.2. 105-ci maddənin ikinci cümləsində “idarələrindəki” sözü “təşkilatlarındakı” sözü ilə əvəz edilsin.

**Maddə 2.** “Kredit ittifaqları haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 485; 2001, № 12, maddə 736; 2010, № 10, maddə 839; 2016, № 3, maddə 408; 2019, № 1, maddə 32, № 6, maddə 993, № 8, maddə 1366; 2021, № 7, maddə 704, № 12, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü maddənin 1.2-ci bəndinə “nizamnamədə” sözündən əvvəl “Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla” sözləri əlavə edilsin;

2.2. 10-cu maddə üzrə:

2.2.1. 1.3-cü bənddə “nizamnaməsində və digər normativ sənədlərdə” sözləri “Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla nizamnaməsində” sözləri ilə əvəz edilsin;

2.2.2. 2.4-cü bəndə “müqavilə şərtlərinə” sözlərindən əvvəl “Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla” sözləri əlavə edilsin.

**Maddə 3**. “Tütün və tütün məmulatı haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə

568; 2002, № 5, maddə 240; 2003, № 1, maddə 6; 2007, № 5, maddə 397, № 10, maddə 938; 2009, № 12, maddə 945; 2016, № 1, maddə 28; 2017, № 1, maddə 2, № 12 (I kitab), maddə 2244; 2018, № 12 (I kitab), maddə 2476; 2022, № 8, maddə 833) 8.3-cü maddəsində "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq" sözləri "Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 130; 2005, № 4, maddə 276; 2007, № 5, maddə 401, № 6, maddə 562, № 11, maddə 1070; 2008, № 11, maddə 960; 2009, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 4, maddə 276, № 10, maddə 839; 2011, № 7, maddə 590; 2013, № 7, maddə 790; 2014, № 7, maddə 772, № 12, maddə 1517; 2015, № 11, maddə 1262; 2016, № 3, maddə 406, № 6, maddə 975; 2017, № 4, maddə 521, № 11, maddə 1956, № 12 (I kitab), maddə 2227; 2018, № 1, maddə 33, № 5, maddə 842, № 7 (I kitab), maddə 1389, № 12 (I kitab), maddə 2466; 2019, № 1, maddələr 32, 50, № 4, maddə 599, № 6, maddə 999, № 7, maddə 1185, № 8, maddə 1365; 2020, № 5, maddə 515; 2021, № 1, maddə 8, № 11, maddə 1206, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 2 dekabr tarixli 671-VIQD nömrəli, 20 dekabr tarixli 706-VIQD nömrəli, 23 dekabr tarixli 754-VIQD nömrəli və 30 dekabr tarixli 785-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.0.9-cu maddədən "(müddətin uzadılması hüququ ilə)" sözləri çıxarılsın və həmin maddədə "(komisyon haqqlar)" sözləri "və (və ya) müqavilədə göstərilən digər ödənişlər" sözləri ilə əvəz edilsin;

4.2. 36.6-cı maddənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Mülki Məcəlləsində ayrı qayda nəzərdə tutulmayıbsa, kreditin verilməsinə görə faizin və (və ya) digər haqqın məbləği və ya hesablanma qaydası tərəflərin razılaşması ilə müəyyən edilir. Faizlər, o cümlədən gecikdirilmiş vaxt üçün hesablanan faizlər və digər haqlar yalnız borcun qaytarıldığı günədək ödənilməmiş əsas borc qalığı məbləğinə hesablanır.".

**Maddə 5.** "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 72; 2013, № 7, maddə 789; 2014, № 10, maddə 1160; 2016, № 3, maddə 407, № 4, maddə 641; 2017, № 12 (I kitab), maddə 2228; 2018, № 5, maddə 844, № 6, maddə 1171; 2019, № 1, maddə 32, № 5, maddə 815; 2021, № 12, maddə 1298; Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 713-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.4-cü maddəyə "məbləği" sözündən sonra "Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla" sözləri əlavə edilsin;

5.2. 17.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"17.2. BOKT tərəfindən kreditlərin verilməsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 fevral 2023-cü il
№ 823-VIQD